# <u>*Əlcəzair portalı:*</u> "Prezident İlham Əliyev Azərbaycanın sülh gündəliyinə sadiq olduğunu bildirib"



Əlcəzairin "Əl Hərir" portalında "Prezident İlham Əliyev Azərbaycanın sülh gündəliyinə sadiq olduğunu bildirib" sərlövhəli material dərc edilib.

AZƏRTAC-ın xəbərinə istinadla dərc olunan yazıda qeyd edilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ Dövlət katibi Antoni Blinkenlə telefon danışığı zamanı Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması məqsədi daşıyan sülh gündəliyinə sadiqliyini və iki ölkə arasında sülh müqaviləsinin təşəbbüskarı olaraq onun imzalanmasını dəstəklədiyini vurğulayıb.

Ərəbdilli oxucuların diqqətinə çatdırılıb ki, Azərbaycanın dövlət başçısı Antoni Blinkenin və ABŞ hökumətinin iki ölkə arasında sülh gündəliyinin irəli aparılmasına göstərdiyi davamlı dəstəyinin yüksək qiymətləndirildiyini qeyd edib və yaxın günlərdə Ermənistan tərəfi ilə yüksək səviyyədə növbəti görüşün keçiriləcəyini bildirib.

Azərbaycan.-2023.-16 iyul.-S.3.